Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2025-ci il ölkəmizdə "Konstitusiya və Suverenlik ili" elan olunmuşdur. Bunun da əslində ictimai-siyasi əsasları vardır. Hər bir dövlətin ərazi bütövlüyü, suveren hüquqları qorunmalıdır. 2020-ci ilin 44 günlük Vətən müharibəsində, daha sonra isə 2023-cü ilin sentyabrında ordumuzun apardığı 23 saatlıq antiterror əməliyyatı nəticəsində işğal altında olan torpaqlarımızı yadelli işğalçılardan azad etməklə vətənimizin ərazi bütövlüyünü, həmçinin suverenliyini, müstəqilliyini tamamilə bərpa etdik. Çünki işğalçılardan doğma torpaqlarımızı təmizləmək özü də bizim vətəndaş olaraq, dövlət olaraq tam mənəvi haqqımız, hüququmuz idi. Bu mənada azad, müstəqil, sərbəst bir ölkənin suveren-lik hüququ da onun tam haqqıdır. Biz heç bir ölkədən asılı olmayan suveren hüquqlu bir dövlət kimi artıq yer üzündə - bütün dünyada tanınırıq. Hər bir suveren ölkənin isə özünün mütləq Dövlət Konstitusiyası olmalıdır və bu Konstitusiya ilə onun vətəndaşlarının yaşayış normaları tənzimlənir.

Konstitusiya dövlətin Əsas Qanunu deməkdir və bu qanunlar, qanunda əksini tapan maddələr vasitəsilə hər bir ölkənin, hər bir xalqın konstitusion hüquqları qorunur. Hüquqlar isə rəsmi baxımdan təyinatına görə müxtəlif cür olur. Ailə hüququ, dövlət hüququ, mülki hüquq, cinayət-prosessual hüquq, əmək hüququ və s. Eyni zamanda hüquq pozuntusu halları baş verdikdə, cinayətkarlar məhkəmədə ittiham olunduqda, hüquqi məsələlərə ailə hüququ, əxlaqi baxımdan yanaşmaq, vicdanlı yanaşmaq, inzibati tənbeh normaları prizmasından qiymət vermək və s. kimi amillər də nəzərə alınır. Bir sözlə, Konstitusiyada əksini tapan hüquqi məsələlər həm də humanizmə əsaslanır, humanist dəyərlər üstün tutulur. Müstəqil, suveren dövlətin Konstitusiyasında bütün hüquqi prinsiplər humanist xarakter daşımaqla onun vətəndaşlarının asudə, firavan yaşayışlarına xidmət edir.

***2025-ci il Konstitusiya və Suverenlik ilidir***

# FOLKLORUMUZDA KONSTİTUSİON MÜDDƏALARIN İNİKASI

Qədim dövlətçilik ənənələri olan Azərbaycan Respublikasının müstəqil dövlət Konstitusiyası vardır və oradakı Konstitusion hüquqlar həm də ölkənin vətəndaşlarının və xalqlarının yaşayışına, həyati mənafelərinə uyğun hesablanmışdır. Bu, həm də o deməkdir ki, Konstitusiyadakı maddələr xalqın (insanların, cəmiyyətin) özünün həyata baxışını və mənəvi dəyərlərini özündə əks etdirir. Başqa sözlə, rəsmi olaraq xalqın hüquqlarının tənzimləyicisi olan Əsas Qanun həm də xalqın milli-mənəvi dəyərlərindən, həyata baxış bucağından qaynaqlanmaqla funksionallığını reallaşdırır. Bu nöqteyi-nəzərdən Konstitusiya qanunları-başqa sözlə, yaşam tərzi, həyat normaları qeyri-rəsmi şəkildə, yəni yazılmamış qanunlar formasında özünü xalq yaradıcılığı örnəklərində kifayət qədər göstərməkdədir. Bu amil isə hər şeydən əvvəl, qədim dövlətçilik ənənələrinə sahib olan Türk-Azərbaycan xalqının təfəkkür dünyası ilə birbaşa əlaqəlidir. Bu gün ölkə başçısının işlətdiyi "sözümüz imzamızdır" kəlamının kökü "kişinin sözü bir olar" məsəlimizdən gəlir və bu kişi sözü əslində "yazılmamış qanun" kimi özünü yeritməkdədir. Fransız yazıçısı Aleksandr Dümanın Qafqazla bağlı xatirələrində də yazılı müqavilə-əqd əvəzinə azərbaycanlılarda kişilərin verdiyi sözü tutmasının, verdiyi sözə sadiq olmasının əsas olduğunu göstərməsi təsadüfi deyildir. Yəni bu, onu göstərir ki, tərtib olunan yazılı akt nümunəsi yeri gəldikdə hüquqi sənəd kimi masa üzərinə çıxarılırsa, qanunun müvafiq bəndi, ya maddəsi ilə tutuşdurulursa, biz azərbaycanlılarda belə bir yazılı nizamnamənin, yaxud hüquqi-rəsmi sənədin yerini xalq tərəfindən ümumi olaraq qəbul edilən və folklorlaşdırılan "kişi sözü", geniş mənada Atalar sözləri, məsəllər və s. yerinə yetirmişdir. Buna görə də Azərbaycan folklorunun nümunələrində də, o cümlədən Atalar sözü səviyyəsindəki deyimlərdə və s. konstitusion səviyyədə müddəaların özünə yer aldığı təbiidir.

Məlumdur ki, biz azərbaycanlılar dini etiqad baxımından müsəlmanıq və kitabımız da Qurandır. İslam dininin qaydaqanunları çərçivəsində yaşamaq da elə islam hüququ-yəni müsəlmanın hüquq və vəzifələri ilə müəyyənləşir. Qurandakı hikmətlər-kəlamlar dini (elə dünyəvi) baxımdan da insanın hüquq və haqlarını anlatmağa xidmət edir. "Kitabi-Dədə Qorqud"da belə bir deyim var: "Atalar sözləri Qurana girməz, amma Quranla yalın-yalın yavışır". Bu o deməkdir ki, bizim Azərbaycan Atalar sözləri Qurana girməsə də, "yəni Quran kitabında olmasa" da, orda istifadə olunan mənəvi dəyərlər elə Quran hikmətləri ilə "yalın-yalın", yəni birbaşa yol gedir. Bu onu göstərir ki, Qurandakı kəlamlar insana həyatdakı hüquq və vəzifələrini anlatdığı kimi, Atalar sözləri də elə bu sayaq insanın hüquqlarını, yaşam qaydalarını başa salır. Başqa sözlə, bizim Atalar sözləri, məsəl və deyimlərimiz hüququn müxtəlif sahələrinə dair anlayışları insanlara ötürməklə onlara hüquqlarını başa salır.

***(Davamı var)***

***Şakir ALBALIYEV***
***AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi***